

*İkinci Qarabağ müharibəsi haqqında həqiqətləri dünya ictimaiyyətinə çatdırmaq üçün biz daha fəal olmalıyıq. Eyni zamanda, gənclərimizin tərbiyə işində də mütləq bu mövzu ön planda olmalıdır. Çünki İkinci Qarabağ müharibəsindəki, Vətən müharibəsindəki Qələbəmiz tarixi zəfərimizdir.*

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

# İkinci Qarabağ müharibəsi haqqında həqiqətlər bütün dünya ictimaiyyətinə çatdırılmalıdır

***Qırx dörd günlük Vətən müharibəsində yaşından, etnik və dini mənsubiyyətindən, sosial mənşəyindən asılı olmayaraq, bütün Azərbaycan xalqı cəbhədə ordumuzun qələbəsinə öz töhfəsini vermək üçün Prezident, Ali Baş Komandan İlham Əliyevin ətrafında sıx birləşdi. Qarabağ həqiqətləri, erməni irqçi faşist ideologiyasının ifşa edilməsi, Azərbaycanın ədalətli dövlət siyasətinin təbliği, habelə xalqımızın haqq mübarizəsinin geniş dünya ictimaiyyətinin diqqətinə çatdırılması məqsədilə xaricdə fəaliyyət göstərən beynəlxalq qurumlara, universitet və elmi mərkəzlərə, görkəmli alim və mütəxəssislərə, ziyalılara xüsusi məktublar və müraciətlər göndərildi.***

Dövlətimizin başçısı hələ İkinci Qarabağ müharibəsindən əvvəlki vaxtlarda etdiyi ayrı-ayrı çıxışlarda işğalçı Ermənistana qarşı informasiya mübarizəsinin önəmini diqqətə çatdırmış, düşmənin haqqımızda daim yalan məlumatlar, uydurma faktlar yaydığını vurğulayaraq, buna adekvat cavab verilməsinin, Azərbaycan həqiqətlərinin dünyaya çatdırılmasının zəruriliyini xatırlatmışdı. Vətən müharibəsi günlərində də Prezident İlham Əliyev bu məsələni diqqətdə saxlayaraq, dünyanın aparıcı informasiya agentliklərinə, televiziya kanallarına verdiyi çoxsaylı müsahibələrində suallara dəqiq, məntiqli, faktlara söykənən cavabları ilə Qarabağ münaqişəsi haqqında həqiqətləri beynəlxalq aləmə çatdırdı. Bununla da düşmənin saxta xəbərlərinin (fake news) ayaq açıb yeriməsinə imkan vermədi, işğalçının bütün avantüra, qarayaxma kampaniyalarının qarşısını qətiyyətlə aldı, xalqımızın beynəlxalq hüququn norma və prinsipləri, BMT Təhlükəsizlik Şurasının məlum qətnamələri əsasında haqq savaşı apardığını bildirdi.

Ölkə rəhbərinin belə bir məsələyə xüsusi diqqət yetirməsi təsadüfi deyildi. Çünki dövlətimizin başçısı çıxışlarının birində vurğuladığı kimi, işğalçının ölkəmizə qarşı uzun illərdən bəri həyata keçirdiyi demonizasiya siyasəti, uydurmaları, azərbaycanlıları düşmən, Azərbaycanın isə sanki Ermənistanı və Qarabağı işğal altında saxlayan formada təqdimatı bu məsələni zəruri edirdi. Buna görə də Prezident İlham Əliyev Vətən müharibəsi parlaq qələbəmizlə başa çatandan sonra da Ermənistanın 30 ilə yaxın bir dövrdə işğal siyasəti aparmasını, soydaşlarımızı doğma yurdlarında yaşamaları ilə bağlı fundamental hüquqlardan məhrum etməsini xatırladaraq deyirdi: "Biz Ermənistan ordusu tərəfindən törədilmiş vəhşilikləri unuda bilmərik. Biz heç vaxt Ermənistan və qondarma "Dağlıq Qarabağ rejimi"nin rəhbərliyi tərəfindən törədilmiş Xocalı soyqırımını və günahsız qurbanların xatirəsini unutmayacağıq. Bu səbəbdən həmin yaddaşın bizimlə qalacağını anlamaq olduqca vacibdir. Bu yaddaş qəlblərimizdə yaşayacaq...".

Bu yaddaş– Ermənistanın işğalçılıq siyasəti, erməni vəhşiliyi, vandalizmi və barbarlığı barədə beynəlxalq aləmin məlumatlandırılması, təsdiqlənməsi mühüm önəm daşıyır. Ona görə də ölkə rəhbəri bu amili nəzərə alaraq, yuxarıda qeyd etdiyimiz kimi, Qarabağ münaqişəsi başlayandan indiyədək bütün hadisələri təfərrüatı ilə dünya ictimaiyyətinə çatdırır. Məsələn, dövlətimizin başçısı istər İkinci Qarabağ savaşı dövründə, istərsə də döyüşlər möhtəşəm zəfərimizlə yekunlaşandan sonra Azərbaycan həqiqətləri haqqında beynəlxalq aləmdə aydın təsəvvür yaratmağa çalışır və buna uğurla nail olur.

Bu məqamda bir məsələni xatırlatmaq istərdik. Torpaqlarımız işğaldan azad edildikdən sonra həmin ərazilərdə erməni vəhşiliyinin şahidi olduq. Düşmən şəhər və kəndlərimizi qəsb etməklə kifayətlənməyib, həm də yaşayış sahələrini demək olar ki, yer üzündən silib, maddi-mədəni nümunələri dağıdıb, bir qismini isə erməniləşdirməyə cəhd göstərsə də, buna nail ola bilməyib. Bununla bərabər, yeraltı, yerüstü sərvətlərimizi talayıb aparıb. Ölkə rəhbərinin çıxışlarının birində bununla bağlı səsləndirdiyi fikirlərə diqqət yetirək. Belə ki, dövlətimizin başçısı qeyd edib ki, hələ Vətən müharibəsindən əvvəl erməni tərəf o vaxtkı Dağlıq Qarabağa qanunsuz səfərlər edən əcnəbiləri belə Ağdam, Füzuli və digər rayonlara törədilən dağıntıların dəhşətlərini görməmələri üçün buraxmırdı: "Səbəb ondan ibarət idi ki, Ermənistan hökuməti onların həmin ərazilərdə olan dağıntıların, işğalın, azərbaycanlılara qarşı olan nifrətin nəticəsinin şahidi olmasını istəmirdi. Aydındır ki, həmin ərazilər Birinci Qarabağ müharibəsi dayandıqdan sonra viran qoyulmuşdur, çünki müharibə gedə-gedə şəhər və kəndləri dağıtmaq mümkün olmazdı. Onlar bunu bilərəkdən, Azərbaycan mədəniyyətinin izini itirmək, bu torpaqları bizim yaddaşımızdan silmək və həmin ərazilərin mənşəyini dəyişdirmək məqsədilə ediblər...".

Göründüyü kimi, dövlətimizin başçısının rəhbərliyi ilə Azərbaycanın informasiya cəbhəsində düşünülmüş sistemli, eyni zamanda, fakt və dəlillərə əsaslanan səmərəli fəaliyyəti Ermənistan hakimiyyətinin uzun illər bu istiqamətdə apardığı qismən uğurlu mübarizənin hazırda tam fiaskoya uğramasını şərtləndirir. Bu məsələdə diqqət çəkən məqam həm də odur ki, Prezident İlham Əliyev müsahibələrində, eləcə də xarici KİV nümayəndələri ilə görüşlərində, həmçinin beynəlxalq konfranslarda respublikamızın haqlı mövqeyi ilə bağlı sualları təmkinlə, uzaqgörənliklə, siyasi peşəkarlıqla əsaslandırır, məsələnin mahiyyətini səbirlə izah edir, zəruri sənədlərə və tarixi faktlara istinadən öz mövqeyini, habelə dediklərinin doğruluğunu, ədalətə söykəndiyini sübuta yetirir.

Bu fikrin təsdiqi olaraq diqqəti bəzi məqamlara yönəltmək istərdik. Əvvəla onu qeyd edək ki, Azərbaycan hər zaman tolerant, multikultural dəyərlərin inkişafına böyük töhfələr verib. Ölkəmizdə bütün millətlərin, dinlərin nümayəndələrinin sülh, əmin-amanlıq şəraitində yaşamaları üçün bütün zəruri şərait yaradılıb. Tarixi-mədəni, dini abidələrimiz necə qorunubsa, digər millətlərə və dinlərə xas olan dəyərlər də eləcə mühafizə olunub. Lakin Azərbaycanın işğal altındakı torpaqları azad edildikcə həmin yerlərdə Ermənistanın həyata keçirdiyi vandalizm və barbarlıq hərəkətləri bütün çılpaqlığı ilə nəzərə çarpıb: qəsbkar ordu respublikamızın əzəli ərazilərindəki tarixi-mədəni abidələri, məscidləri, qəbirləri dağıdıb, təhqir və talan edib.

Azərbaycanda tolerant, multikultural dəyərlərə önəm verilməsinin nəticəsidir ki, Vətən müharibəsində bütün millətlərə mənsub gənclər işğalçıya qarşı qəhrəmanlıqla döyüşdülər, parlaq qələbəmizin əldə edilməsində möhtəşəm uğurlara imza atdılar. Dövlətimizin başçısı bununla bağlı deyib: "Bir çox hallarda multikulturalizm və mədəni müxtəliflik mövzusunda beynəlxalq tədbirlər zamanı mən həmişə qeyd edirdim ki, Azərbaycanın ən böyük sərvətlərindən biri multikultural və multikonfessiyalı cəmiyyətin olmasıdır. Bu müharibə zamanı bütün millətlərin, etnik qrupların nümayəndələri son damla qanlarına qədər döyüşürdülər. Onlar Vətənləri uğrunda döyüşürdülər. Azərbaycanda müxtəlif etnik qruplardan ibarət xalqımızın Vətən sevgisi, vahid dil və dövlətçilik naminə güclü konsolidasiyası baş verdi. Mən bundan fərəhləndim və bu gün də fəxr edirəm ki, biz belə vətəndaşlar tərbiyə etmişik".

Azərbaycan Prezidenti İlham Əliyevin Vətən müharibəsi dövründə 30-a yaxın dünyanın aparıcı mediasına müsahibələri və çıxışları, bəyanatları, xarici jurnalistlərlə mətbuat konfransı, dünyanın aparıcı beyin mərkəzlərinin nümayəndələri ilə görüşü, habelə mühüm beynəlxalq platformalarda nitqləri, müzakirələrdə iştirakı aydın göstərir ki, ölkə rəhbəri təkcə dövlət idarəçiliyi, daxili və xarici siyasət məsələlərinə deyil, həm də dövlətin informasiya siyasətinə yeni strateji baxış nümayiş etdirir.

Prezident İlham Əliyevin yeni informasiya strategiyası şəffaflıq, obyektivlik, sistemlilik, operativlik kimi prinsiplərə əsaslanır, milli maraqların müdafiəsi, ölkə həqiqətlərinin müasir üslubda dünya ictimaiyyətinə çatdırılması, cəmiyyətin hərtərəfli məlumatlandırılması, ictimai rəyə hörmət kimi mühüm amillər üzərində qurulub.

Ermənistanın Azərbaycana qarşı vandal əməlləri heç də bu dövlətin faşist xisləti ilə bağlı deyil. Erməni barbarları ölkəmizə yönəltdikləri vəhşiliyi ona görə edirdilər ki, bu torpaqlar, bu şəhər və kəndlər onların deyildi. Onlar gec-tez ərazinin sahiblərinin qayıdacaqlarını yaxşı anlayırdılar. Belə olmasaydı, bir müddət bundan əvvəl Ermənistanın sabiq prezidenti Serj Sarkisyan BBC-yə müsahibəsində "Ağdamın mənim vətənim olmadığını əvvəllər də bəyan etmişdim", -deməzdi. Daha sonra isə "Biz kapitulyantı azərbaycanlılar Şuşanı fəth edərək Xankəndinə çox yaxın məsafədə yerləşdiyi bir zamanda üçtərəfli sənədi imzaladığına görə ittiham etmirik, onu məhz yaratdığı şəraitə görə günahlandırırıq".

Bu sözlərlə insan qatili kimi tanıdığımız Serj Sarkisyan baş nazir Paşinyanı müharibə şəraiti yaratdığına görə qınayır. Demək istəyir ki, Paşinyan savaş üçün qıcıqlandırıcı mühiti formalaşdırdığına görə günahkardır. Vəziyyəti əvvəlki qaydada saxlamaqla, danışıqlar prosesini uzatmaqla dağıntının, talanın miqyası daha da genişlənə bilərdi. Bax, vəhşiliyin, barbarlığın nümunəsi budur.

Serj Sarkisyanın aşağıdakı sözləri də onun nə qədər riyakar, talançı, qəddar olduğunu göstərir: "Heç kim məni danışıqlar prosesini bilərəkdən uzatmaqda ittiham edə bilməz. Siz heç bir halda məndən bu torpaqları geri qaytarmayacağımız sözlərini eşidə bilməzdiniz. Hətta, 2000-ci illərdə parlament tribunasından bəyan etmişdim ki, Ağdam mənim vətənim deyil...".

Təəssüf doğuracaq hal budur ki, dünya ictimaiyyəti bu kimi erməni həqiqətlərini, həmçinin Qarabağ və Şərqi Zəngəzurda erməni vəhşiliyini görüb bilsə də, əksər hallarda susur, bir sıra nüfuzlu beynəlxalq təşkilatlar, dövlətlər isə işğalçıya havadarlıq etməkdən belə əl çəkmir.

*"Xalq qəzeti"*